Ümumi sərmayənin 39,5 faizi dövlət, 60,5 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 70,7 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir.

Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin dəyəri ümumi sərmayənin 67,3 faizini təşkil etmişdir.

Əsas kapitala yönəldilmiş sərmayədə müəssisə və təşkilatların vəsaitləri 1771,9 milyon manat, bank kreditləri 133,6 milyon manat, büdcə vəsaitləri 587,5 milyon manat, büdcədənkənar fondların vəsaitləri 21,0 milyon manat, əhalinin şəxsi vəsaitləri 176,7 milyon manat, sair vəsaitlər 9,0 milyon manat təşkil etmişdir.

Cədvəl 25

## Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlər

| | 2019-cu ilin yanvar-mart aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **2699,7** | **91,0** | **100,0** |
| o cümlədən: Müəssisə və təşkilatların vəsaitləri | 1771,9 | 98,9 | 65,6 |
| Bank kreditləri | 133,6 | 33,0 | 5,0 |
| Büdcə vəsaitləri | 587,5 | 102,0 | 21,8 |
| Büdcədənkənar fondların vəsaitləri | 21,0 | 119,7 | 0,8 |
| Əhalinin şəxsi vəsaiti | 176,7 | 109,1 | 6,5 |
| Sair vəsaitlər | 9,0 | 58,9 | 0,3 |

Qrafik 7

## Əsas kapitala yönəldilmiş vəsaitlərin maliyyə mənbələri üzrə strukturu, faizlə



2019-cu ilin yanvar-mart aylarında əsas kapitala yönəldilmiş ümumi vəsaitin 49,0 faizi sənaye, 21,5 faizi tikinti, 15,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 1,9 faizi təhsil, 1,8 faizi informasiya və rabitə, 1,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, hər birində 0,9 faiz olmaqla peşə, elmi və texniki fəaliyyət, səhiyyə, 0,8 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 0,5 faizi digər sahələrdə xidmətlərin göstərilməsi, 0,4 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, hər birində 0,1 faiz olmaqla maliyyə və sığorta fəaliyyəti, istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət sahələrinə sərf edilmişdir.

Cədvəl 26

### İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin dəyəri

| İqtisadiyyatın sahələri | 2019-cu ilin yanvar-mart aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **2699,7** | **91,0** | **100,0** |
| **Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | **86,0** | **145,6** | **3,2** |
| **Sənaye** | **1321,8** | **76,6** | **49,0** |
| o cümlədən: Mədənçıxarma sənayesi | 1064,3 | 75,1 | 39,5 |
| Emal sənayesi | 95,3 | 103,7 | 3,5 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 105,2 | 195,6 | 3,9 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 57,0 | 34,7 | 2,1 |
| **Tikinti** | **579,0** | **95,2** | **21,5** |
| ondan yaşayış evlərinin tikintisi | 250,9 | 136,6 | 9,3 |
| **Ticarət; nəqliyyat vasitələrinin təmiri** | **10,9** | **151,9** | **0,4** |

...ardı

| İqtisadiyyatın sahələri | 2019-cu ilin yanvar-mart aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Nəqliyyat və anbar təsərrüfatı** | **412,1** | **117,1** | **15,3** |
| o cümlədən: nəqliyyat | 411,9 | 117,2 | 15,3 |
| poçt və kuryer fəaliyyəti | 0,2 | 22,4 | 0,0 |
| **Turistlərin yerləşdirilməsi və ictimai iaşə** | **33,0** | **3,6 d.** | **1,2** |
| **İnformasiya və rabitə** | **48,0** | **101,9** | **1,8** |
| ondan rabitə | 47,6 | 104,0 | 1,8 |
| **Maliyyə və sığorta fəaliyyəti** | **1,6** | **179,2** | **0,1** |
| **Daşınmaz əmlakla əlaqədar əməliyyatlar** | **-** | **-** | **-** |
| **Peşə, elmi və texniki fəaliyyət** | **25,4** | **8,3 d.** | **0,9** |
| **İnzibati və yardımçı xidmətlərin göstərilməsi** | **22,7** | **2,9 d.** | **0,8** |
| **Dövlət idarəetməsi və müdafiə; sosial təminat** | **65,8** | **70,9** | **2,4** |
| **Təhsil** | **51,8** | **15,2 d.** | **1,9** |
| **Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi** | **23,6** | **83,1** | **0,9** |
| **İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət** | **3,4** | **22,8** | **0,1** |
| **Digər sahələrdə xidmətlərin göstərilməsi** | **14,6** | **2,4 d.** | **0,5** |

2019-cu ilin yanvar-mart aylarında neft sektoruna 1094,8 milyon manatlıq vəsait yönəldilmişdir. Qeyri-neft sektorunun inkişafına sərf edilmiş 1604,9 milyon manatlıq vəsaitin 227,0 milyon manatı (ümumi sərmayənin 8,4 faizi) qeyri-neft sənayesi sektorunda istifadə edilmişdir.

Cədvəl 27

**Neft və qeyri-neft sektoru üzrə əsas kapitala yönəldilmiş vəsaitlər**

| | Neft sektoru | | Qeyri-neft sektoru | |
|---|---|---|---|---|
| | milyon manat | ümumi yekunda xüsusi çəkisi, faizlə | milyon manat | ümumi yekunda xüsusi çəkisi, faizlə |
| Yanvar | 362,0 | 41,7 | 506,7 | 58,3 |
| Fevral | 358,9 | 42,6 | 483,6 | 57,4 |
| Mart | 373,9 | 37,8 | 614,6 | 62,2 |

2019-cu ilin yanvar-mart aylarında Bakı şəhərində Əmlak Məsələləri Dövlət Komitəsinin Əmlak Xidmətləri Məkanı, Sumqayıt şəhərində "SOCAR karbamid" zavodu, Polietilen zavodu, Beyləqan rayonunda Olimpiya İdman Kompleksi, Tarix-Diyarşünaslıq Muzeyi, Kəbirli - Eyvazalılar - Birinci Aşıqlı - Əlinəzərli və Mingəçevir - Stansiya Mingəçevir - Bəhrəmtəpə - Beyləqan avtomobil yolları, bunlardan əlavə Naxçıvan Muxtar Respublikasında 1170 şagird yerlik 2 ümumtəhsil məktəb binası, 200 yerlik məktəbəqədər təhsil müəssisəsi, bir növbədə gəlişlərin sayı 35 nəfər olan 2 ambulatoriya-poliklinika müəssisəsi, Şəmkir rayonunda 260 çarpayılıq xəstəxana və s. mühüm əhəmiyyətli obyektlər istifadəyə verilmişdir.

Xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 882,7 milyon manat vəsait yönəldilmişdir.

Cədvəl 28

**Daxili və xarici mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitlər**

| | Daxili mənbələr üzrə | | Xarici mənbələr üzrə | |
|---|---|---|---|---|
| | milyon manat | ümumi yekunda xüsusi çəkisi, faizlə | milyon manat | ümumi yekunda xüsusi çəkisi, faizlə |
| Yanvar | 578,2 | 66,6 | 290,5 | 33,4 |
| Fevral | 586,8 | 69,6 | 255,7 | 30,4 |
| Mart | 652,0 | 66,0 | 336,5 | 34,0 |

Xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş vəsaitin 801,3 milyon manatı (90,8 faizi) Birləşmiş Krallıq, Türkiyə, İsveçrə, ABŞ, Malayziya, Yaponiya,

Çexiya, İran, Rusiya və Norveç sərmayədarlarına məxsus olmuşdur.

2019-cu ilin yanvar-mart aylarında tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin 61,3 faizini tikinti, yenidənqurma və genişləndirmə, 10,5 faizini əsaslı təmir, 9,4 faizini cari təmir, 18,8 faizini isə sair tikinti işləri təşkil etmişdir. Ümumi inşaat işlərinin 83,6 faizini qeyri-dövlət tikinti müəssisələri yerinə yetirmişlər.

Qrafik 8

**Tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin strukturu** (ümumi yekuna görə, faizlə)



# Kənd təsərrüfatı

2019-cu ilin yanvar-mart ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 894,2 milyon manat təşkil etmişdir ki, onun da 857,7 milyon manatı heyvandarlıq, 36,5 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.

Qrafik 9

**Kənd təsərrüfatının ümumi məhsulunun strukturu**



Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 3,6 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 2,8 faiz, bitkiçilik məhsulları üzrə isə 24,7 faiz artmışdır.

Cədvəl 29

## Kənd təsərrüfatı üzrə istehsal indeksinin dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Cəmi | o cümlədən: heyvandarlıq məhsulları | o cümlədən: bitkiçilik məhsulları |
| **2018-ci il** | | | |
| Yanvar | 104,3 | 103,6 | 133,5 |
| Yanvar-fevral | 103,4 | 102,6 | 143,8 |
| Yanvar-mart | 104,2 | 102,8 | 163,2 |
| Yanvar-aprel | 103,5 | 102,6 | 120,2 |
| Yanvar-may | 108,5 | 102,5 | 152,0 |
| Yanvar-iyun | 107,6 | 102,5 | 114,6 |
| Yanvar-iyul | 106,5 | 102,5 | 111,0 |
| Yanvar-avqust | 104,2 | 102,6 | 105,8 |
| Yanvar-sentyabr | 104,3 | 102,7 | 105,8 |
| Yanvar-oktyabr | 105,0 | 102,6 | 107,4 |
| Yanvar-noyabr | 104,6 | 102,7 | 106,6 |
| Yanvar-dekabr | 104,6 | 102,7 | 106,8 |
| **2019-cu il** | | | |
| Yanvar | 102,4 | 101,2 | 143,6 |
| Yanvar-fevral | 103,6 | 102,5 | 143,7 |
| Yanvar-mart | 103,6 | 102,8 | 124,7 |

**Bitkiçilik.** Respublikada yaz-tarla işləri aparılır və 2019-cu il aprel ayının 1-nə kimi 126,4 min hektar sahədə və ya 2018-ci ilin eyni dövrü ilə müqayisədə 10,4 faiz çox yazlıq bitkilərin səpini aparılmışdır. Bu dövrdə 21,5 min hektar sahədə dənlilər və dənli paxlalı bitkilər (ondan 1,7 min hektarı dən üçün qarğıdalı), 28,8 min hektar sahədə kartof, 25,9 min hektar sahədə tərəvəz, 3,0 min hektar sahədə bostan bitkiləri, 3,1 min hektar sahədə şəkər çuğunduru, 2,9 min hektar sahədə dən üçün günəbaxan, 40,7 min hektar sahədə çoxillik otlar və 0,5 min hektar sahədə birillik otlar əkilmişdir.

Qrafik 10

**Yazlıq bitkilərin əkin sahəsinin quruluşu**



Cədvəl 30

## Yazlıq bitkilərin əkini

hektar

| | Yanvar-mart | | 2019-cu il 2018-ci ilə nisbətən %-lə |
|---|---|---|---|
| | 2019 | 2018 | |
| **Yaz əkininin əvvəlindən əkilmişdir** | **126 447,2** | **114 540,3** | **110,4** |
| Dənlilər və dənli paxlalı bitkilər (qarğıdalısız) | 19 838,8 | 14 611,2 | 135,8 |
| onlardan: buğda | 7 184,0 | 596,5 | 12,0 dəfə |
| vələmir | 4 649,6 | 3 312,6 | 140,4 |
| Qarğıdalı | 1 696,4 | 1 312,1 | 129,3 |
| Pambıq | - | 61,0 | - |
| Dən üçün günəbaxan | 2 865,5 | 2 077,5 | 137,9 |
| Şəkər çuğunduru (emal üçün) | 3 093,9 | 5 008,5 | 61,8 |
| Kartof | 28 809,1 | 28 139,4 | 102,4 |
| Tərəvəz | 25 915,8 | 25 814,1 | 100,4 |
| Bostan bitkiləri | 3 004,8 | 2 379,0 | 126,3 |
| Birillik otlar | 543,6 | 396,0 | 137,3 |
| Çoxillik otlar | 40 663,3 | 34 551,2 | 117,7 |
| Sair yazlıq bitkilər | 16,0 | 190,3 | 8,4 |

Təsərrüfatlarda yanvar-mart aylarında 68,3 min ton və yaxud keçən ilin müvafiq dövrünə nisbətən 32,0 faiz çox tərəvəz məhsulları istehsal edilmişdir.

**Heyvandarlıq.** 2019-cu ilin yanvar-mart aylarında quş əti də daxil olmaqla diri çəkidə 122,9 min ton ət, 467,5 min ton süd, 442,4 milyon ədəd yumurta istehsal edilmiş, 2018-ci ilin müvafiq dövrünə nisbətən ət istehsalı 3,1 faiz, süd istehsalı 2,0 faiz, yumurta istehsalı 1,8 faiz artmışdır.

Qrafik 11

**Əsas növ heyvandarlıq məhsullarının istehsalı**




2019-cu il aprelin 1-i vəziyyətinə ölkə üzrə 2672,7 min baş iribuynuzlu mal-qara, o cümlədən 1284,8 min baş inək və camış, 8563,7 min baş qoyun və keçi və 5890 baş donuz mövcud olmuşdur. İribuynuzlu mal-qaranın 48,1 faizini inək və camışlar təşkil edir.

Cari ilin yanvar-mart aylarında quşçuluq fabriklərində diri çəkidə 18,4 min ton (keçən il 20,5 min ton) quş əti və 176,5 milyon ədəd (keçən il 181,7 milyon ədəd) yumurta istehsal olunmuşdur. Ümumilikdə fabriklər üzrə cəmi quşların sayı 12086,0 min baş olmuş, hər yumurtlayan toyuqdan orta hesabla 50 ədəd yumurta alınmışdır.

Qrafik 12

**Mal-qaranın sayı,**
**aprelin 1-i vəziyyətinə, min baş**



# Nəqliyyat

2019-cu ilin yanvar-mart ayları ərzində nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 50,9 milyon ton yük daşınmış və 2018-ci ilin müvafiq dövrünə nisbətən 2,1 faiz artım müşahidə olunmuşdur. Yüklərin 3,0 faizi dəniz, 6,9 faizi dəmir yolu, 0,1 faizi hava, 59,3 faizi avtomobil nəqliyyatı, 30,7 faizi isə boru kəməri ilə daşınmışdır.

Qrafik 13

**Yük daşınmasının nəqliyyat növləri üzrə strukturu, faizlə**




Qeyri-dövlət sektoruna məxsus nəqliyyat vasitələri ilə daşınmış yüklərin həcmi 2,4 faiz artmış, daşınmış yüklərin ümumi həcmində onların xüsusi çəkisi 79,0 faiz təşkil etmişdir.

2019-cu ilin yanvar-mart aylarında nəqliyyatçılar 460,7 milyon nəfərə və ya 2018-ci ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz çox sərnişinə xidmət göstərmişlər. Sərnişinlərin 87,7 faizi avtomobil nəqliyyatı, 12,1 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınmışdır.

**Dəmir yolu nəqliyyatı** ilə 2019-cu ilin yanvar-mart ayıları ərzində 3,5 milyon ton yük, 717,3 min sərnişin daşınmış, 2018-ci ilin eyni dövrü ilə müqayisədə yük daşınmasında 8,2 faiz, sərnişin daşınmasında isə 16,8 faiz artım müşahidə olunmuşdur.

Orta hesabla sutkada 269 vaqon yüklənmiş, 394 vaqon isə boşaldılmışdır.

Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 10,5 min ton, Qərb istiqaməti üzrə 4,3 min ton, Cənub istiqaməti üzrə isə 0,5 min ton yüklənmə işi yerinə yetirilmişdir.

**Dəniz nəqliyyatı** ilə 2019-cu ilin yanvar-mart aylarında daşınmış yüklərin həcmi 1544,8 min ton təşkil etmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 27,4 faiz azalmışdır. Yüklərin 30,6 faizini neft yükləri təşkil etmişdir.

Dəniz limanları tərəfindən 2095,7 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilmiş və yüklərin 1874,3 min tonunu və ya 89,4 faizini tranzit yüklər təşkil etmişdir.

2019-cu il aprel ayının 1-i vəziyyətinə limanlarda qalan yüklərin həcmi 59,1 min ton olmuşdur.

Dövr ərzində bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı 2018-ci ilin müvafiq dövrünə nisbətən 44,4 faiz artaraq 3,9 min nəfər olmuşdur.

Qrafik 14

**Nəqliyyat sektorunda daşınmış yüklərin həcmi, min ton**



Nəqliyyat sektorunda daşımaların həcmində xüsusi çəkisi ən böyük olan **avtomobil nəqliyyatı** ilə 30,2 milyon ton yük, 403,9 milyon sərnişin daşınmış və əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 2,3 faiz və 1,6 faiz artım qeydə alınmışdır. Sərnişinlərin 96,0 faizi avtobus, 4,0 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişdir. Yük dövriyyəsi 2,3 faiz, sərnişin dövriyyəsi isə 1,7 faiz artmışdır.

**Metro nəqliyyatının** xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 1,4 faiz azalaraq 55,6 milyon nəfər olmuşdur.

**Hava nəqliyyatı** ilə 477,7 min və ya 0,4 faiz çox sərnişin daşınmış, daşımaların 99,8 faizi dövlət, 0,2 faizi isə özəl müəssisələrə məxsus nəqliyyat vasitələri ilə həyata keçirilmişdir. Bu nəqliyyat növü ilə yükdaşıma 10,8 faiz azalaraq 45,3 min tona çatmışdır.

**Magistral neft kəmərləri** ilə 10005,4 min ton neft nəql edilmişdir. Nəqletmənin 81,5 faizi Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri ilə həyata keçirilmiş və cari ilin yanvar-mart ayları ərzində bu kəmər vasitəsilə 8150,2 min ton neft ötürülmüşdür. Dövr ərzində BTC kəməri ilə 1185,2 min ton tranzit nefti də nəql edilmişdir.

**Magistral qaz kəmərləri** ilə 7783,5 milyon kub-metr qaz nəql edilmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 16,8 faiz artım müşahidə olunmuşdur. Qazın nəqlinin 33,5 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 2605,4 milyon kub-metr qaz ötürülmüşdür.

2019-cu ilin yanvar-fevral aylarında **Avropa-Qafqaz-Asiya** nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 8211,5 min ton, yük dövriyyəsi isə 1705,8 milyon ton-km olmuşdur. Yüklərin 5391,5 min tonu və ya 65,7 faizi avtomobil nəqliyyatı, 1963,1 min tonu və ya 23,9 faizi dəmir yolu nəqliyyatı, 856,9 min tonu və ya 10,4 faizi dəniz nəqliyyatı ilə daşınmışdır.

Dəhliz vasitəsilə daşınmış yüklərin 15,6 faizini və ya 1277,5 min tonunu tranzit yüklər təşkil etmişdir.

## İnformasiya və rabitə

2019-cu ilin yanvar-mart ayıları ərzində **informasiya və rabitə müəssisələri** 463,5 milyon manatlıq xidmət göstərmişdir ki, onun da 71,5 faizi əhali tərəfindən istehlak olunmuşdur. 2018-ci ilin eyni dövrü ilə müqayisədə informasiya və rabitə xidmətlərinin dəyəri real ifadədə 7,6 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 82,3 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Xidmətlərdən əldə edilən gəlirin 43,6 faizi və ya 201,9 milyon manatı mobil telefon rabitəsi sahəsində formalaşmışdır.

# İstehlak bazarı

2019-cu ilin yanvar-mart aylarında istehlakçıların tələbatlarının ödənilməsi məqsədi ilə satılmış məhsulların və göstərilmiş xidmətlərin dəyəri 11,3 milyard manat olmaqla 2018-ci ilin yanvar-mart aylarına nisbətən müqayisəli qiymətlərlə 2,4 faiz artmışdır.

Qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış məhsulların və göstərilmiş xidmətlərin dəyəri əvvəlki ilin yanvar-mart aylarının səviyyəsini real ifadədə 2,4 faiz üstələyərək 10,8 milyard manata bərabər olmuş, onun 47,0 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşmışdır.

Cədvəl 31

**İstehlak bazarı üzrə əsas göstəricilər**

| | 2019-cu ilin yanvar-mart ayları, milyon manat | 2019-cu ilin yanvar-mart ayları 2018-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|
| **İstehlak bazarında satılmış məhsulların və göstərilmiş xidmətlərin ümumi dəyəri** | **11 252,8** | **102,4** |
| o cümlədən:<br>dövlət mülkiyyəti üzrə | 450,4 | 102,4 |
| qeyri-dövlət mülkiyyəti üzrə | 10 802,4 | 102,4 |
| ondan:<br>fərdi sahibkarlar üzrə | 5 076,9 | 99,2 |

Hesabat rübündə istehlak bazarında bir istehlakçı orta hesabla ayda 380,1 manatlıq və ya 2018-ci ilin eyni dövrü ilə müqayisədə 12,3 manat çox əmtəə almış və ödənişli xidmətlərdən istifadə etmişdir.

# Məhsul bazarı

2019-cu ilin yanvar-mart aylarında pərakəndə ticarət dövriyyəsi əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 2,7 faiz artaraq 8,8 milyard manat olmuşdur.

Cədvəl 32

**Məhsul bazarı üzrə əsas göstəricilər**

| | 2019-cu ilin yanvar-mart ayları, milyon manat | 2019-cu ilin yanvar-mart ayları 2018-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **8 843,1** | **102,7** |
| o cümlədən: müəssisələr üzrə | 1 654,3 | 130,8 |
| fərdi sahibkarlar üzrə | 4 323,5 | 98,8 |
| bazar və yarmarkalar üzrə | 2 865,3 | 96,5 |

Qrafik 15

**2019-cu ilin yanvar-mart aylarında**
**pərakəndə ticarət dövriyyəsinin strukturu**




Hesabat rübündə pərakəndə ticarət şəbəkəsində bir istehlakçı orta hesabla ayda 298,7 manatlıq və ya 2018-ci ilin eyni dövrü ilə müqayisədə 9,5 manat çox əmtəə almışdır.

Qrafik 16

**Pərakəndə ticarət şəbəkəsində istehlak məhsullarının satışı və qiymət indeksinin dinamikası**

(əvvəlki aya nisbətən, faizlə)




Cədvəl 33

**Pərakəndə ticarət dövriyyəsinin dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Pərakəndə ticarət dövriyyəsi | o cümlədən: | |
| | | ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə | qeyri-ərzaq məhsulları üzrə |
| **2018-ci il** | | | |
| Yanvar | 102,4 | 101,7 | 103,0 |
| Yanvar-fevral | 102,5 | 101,8 | 103,2 |
| Yanvar-mart | 102,6 | 102,0 | 103,3 |
| Yanvar-aprel | 102,5 | 101,9 | 103,1 |
| Yanvar-may | 102,4 | 101,8 | 103,0 |
| Yanvar-iyun | 102,5 | 101,9 | 103,1 |
| Yanvar-iyul | 102,6 | 101,9 | 103,2 |
| Yanvar-avqust | 102,7 | 102,2 | 103,2 |
| Yanvar-sentyabr | 102,7 | 102,1 | 103,3 |
| Yanvar-oktyabr | 102,6 | 102,1 | 103,2 |
| Yanvar-noyabr | 102,7 | 102,2 | 103,3 |
| Yanvar-dekabr | 103,0 | 102,5 | 103,4 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Pərakəndə ticarət dövriyyəsi | o cümlədən: | |
| | | ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə | qeyri-ərzaq məhsulları üzrə |
| **2019-cu il** | | | |
| Yanvar | 102,7 | 102,4 | 103,1 |
| Yanvar-fevral | 102,6 | 102,3 | 103,0 |
| Yanvar-mart | 102,7 | 102,4 | 103,1 |

2019-cu ilin yanvar-mart aylarında pərakəndə ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri 2018-ci ilin eyni dövrünün səviyyəsini real ifadədə 2,4 faiz üstələyərək 4472,1 milyon manata çatmışdır. Ticarət dövriyyəsi 4371,0 milyon manat təşkil edən qeyri-ərzaq məhsullarının satışı isə 2018-ci ilin yanvar-mart ayları ilə müqayisədə 3,1 faiz çox olmuşdur.

Cədvəl 34

**Pərakəndə ticarət dövriyyəsinin makrostrukturu**

| | 2019-cu ilin yanvar-mart aylarında, milyon manat | Ümumi yekunda xüsusi çəkisi, faizlə | 2019-cu ilin yanvar-mart ayları 2018-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **8 843,1** | **100,0** | **102,7** |
| o cümlədən: ərzaq məhsulları, içkilər və tütün məmulatları | 4 472,1 | 50,6 | 102,4 |
| qeyri-ərzaq məhsulları | 4 371,0 | 49,4 | 103,1 |

Hesabat dövründə bir istehlakçı pərakəndə ticarət şəbəkəsindən orta hesabla ayda 151,1 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 147,6 manatlıq qeyri-ərzaq məhsulları almışdır.

Cədvəl 35

**2019-cu ilin yanvar-mart aylarında pərakəndə ticarət dövriyyəsinin məhsullar üzrə strukturu**

| | 2019-cu ilin yanvar-mart aylarında satışdan gəlir, milyon manat | 2018-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **8 843,1** | **102,7** |
| o cümlədən: ərzaq məhsulları, içkilər və tütün məmulatları | 4 472,1 | 102,4 |
| toxuculuq məhsulları, geyim və ayaqqabılar | 1 563,8 | 103,0 |
| elektrik malları və mebellər | 525,7 | 102,6 |
| kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsulları | 65,1 | 102,9 |
| əczaçılıq və tibbi mallar | 110,5 | 103,5 |
| avtomobil yanacağı | 493,2 | 101,9 |
| digər qeyri-ərzaq məhsulları | 1 612,7 | 103,6 |

2019-cu ilin yanvar-mart aylarında istehlakçıların pərakəndə ticarət şəbəkələrində xərclədiyi vəsaitin 45,5 faizi ərzaq məhsullarının, 5,1 faizi içkilər və tütün məmulatlarının, 17,7 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,9 faizi elektrik malları və mebellərin, 5,6 faizi avtomobil yanacağının, 1,3 faizi əczaçılıq və tibbi malların, 0,7 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 18,2 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunmuşdur.

# İctimai iaşə xidmətləri

2019-cu ilin yanvar-mart aylarında ictimai iaşə dövriyyəsi 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 3,4 faiz artaraq 317,1 milyon manat olmuşdur.

Cədvəl 36

**İctimai iaşə dövriyyəsi**

| | 2019-cu ilin yanvar-mart ayları, min manat | 2019-cu ilin yanvar-mart ayları 2018-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Cəmi** | **317 107,5** | **103,4** |
| o cümlədən:<br>dövlət | 3 964,9 | 94,7 |
| qeyri-dövlət | 313 142,6 | 103,5 |
| ondan:<br>fiziki şəxslər | 187 109,4 | 103,3 |

Özəl sektorda ictimai iaşə dövriyyəsinin 40,2 faizi hüquqi şəxs statuslu müəssisələrin, 59,8 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların payına düşür. Hüquqi şəxs statuslu müəssisələrdə dövriyyə 2018-ci ilin eyni dövrü ilə müqayisədə 3,9 faiz artaraq 126,0 milyon manat olmuşdur.

## Əhaliyə göstərilən ödənişli xidmətlər

2019-cu ilin yanvar-mart aylarında əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2018-ci ilin eyni dövrü ilə müqayisədə real ifadədə 0,8 faiz artaraq 2092,6 milyon manat olmuşdur. Hüquqi şəxslər tərəfindən əhaliyə 1526,3 milyon manatlıq xidmət göstərilmişdir ki, bu da xidmətlərin ümumi dəyərinin 72,9 faizini təşkil etmişdir.

Cədvəl 37

**Ödənişli xidmətlərin göstərilməsi**

| | 2019-cu ilin yanvar-mart aylarında, milyon manat | 2019-cu ilin yanvar-mart ayları 2018-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Ödənişli xidmətlərin ümumi dəyəri - cəmi** | **2 092,6** | **100,8** |
| dövlət | 439,0 | 101,5 |
| qeyri-dövlət | 1 653,6 | 100,6 |
| ondan: fiziki şəxslər | 566,3 | 100,8 |

Cari ilin yanvar-mart aylarında hər bir ölkə sakini orta hesabla 212,0 manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə nominal ifadədə 7,3 manat çox müxtəlif ödənişli xidmətlərdən istifadə etmişdir.

Cədvəl 38

## Əhaliyə göstərilən ödənişli xidmətlərin indeksləri

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Əhaliyə göstərilən ödənişli xidmətlər | o cümlədən: | |
| | | hüquqi şəxslər üzrə | fiziki şəxslər üzrə |
| **2018-ci il** | | | |
| Yanvar | 101,3 | 101,0 | 102,3 |
| Yanvar-fevral | 101,5 | 101,4 | 101,6 |
| Yanvar-mart | 101,7 | 101,6 | 101,7 |
| Yanvar-aprel | 101,9 | 101,9 | 101,7 |
| Yanvar-may | 102,4 | 102,4 | 102,3 |
| Yanvar-iyun | 102,5 | 102,6 | 102,3 |
| Yanvar-iyul | 102,6 | 102,6 | 102,5 |
| Yanvar-avqust | 102,8 | 102,9 | 102,5 |
| Yanvar-sentyabr | 102,6 | 102,6 | 102,5 |
| Yanvar-oktyabr | 102,7 | 102,7 | 102,6 |
| Yanvar-noyabr | 102,8 | 102,8 | 102,7 |
| Yanvar-dekabr | 103,0 | 102,9 | 103,1 |
| **2019-cu il** | | | |
| Yanvar | 100,8 | 100,5 | 101,6 |
| Yanvar-fevral | 100,7 | 100,5 | 101,0 |
| Yanvar-mart | 100,8 | 100,8 | 100,8 |

Qrafik 17

**Əhaliyə göstərilən ödənişli xidmətlər üzrə qiymət və fiziki həcm indeksləri**

(əvvəlki aya nisbətən, faizlə)



# Qiymət indeksləri

Cədvəl 39

| | 2019-cu ilin mart ayı 2019-cu ilin fevral ayına nisbətən, faizlə | 2019-cu ilin yanvar-mart ayları 2018-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|
| İstehlak qiymətləri indeksi | 100,6 | 102,1 |
| Sənaye məhsullarının istehsalçı qiymət indeksi | 103,2 | 106,1 |
| Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi | 101,2 | 101,5 |
| Nəqliyyat xidmətlərinin qiymət indeksi | 99,9 | 97,9 |
| Poçt və kuryer xidmətlərinin qiymət indeksi | 100,0 | 100,1 |
| Rabitə xidmətlərinin qiymət indeksi | 100,0 | 100,0 |

Qrafik 18

## İstehlak və istehsalçı qiymət indeksləri, faizlə



Qrafik 19

**İstehlak məhsullarının və xidmətlərin qiymət indeksi və sənaye məhsullarının istehsalçı qiymət indeksi**

(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




## İstehlak məhsullarının və xidmətlərin qiymətləri

2019-cu ilin mart ayında istehlak məhsullarının və xidmətlərin qiymətləri fevral ayına nisbətən 0,6 faiz, 2019-cu ilin yanvar-mart aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən isə 2,1 faiz bahalaşmışdır.

Cədvəl 40

**İstehlak qiymətləri indeksinin dəyişməsi**

| | Cəmi məhsullar və xidmətlər | | Ərzaq məhsulları, içkilər və tütün məmulatı | |
|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2018-ci il** | | | | |
| Yanvar | 100,0 | 105,5 | 100,5 | 106,9 |
| Fevral | 100,2 | 104,7 | 100,4 | 105,8 |
| Mart | 100,2 | 104,0 | 100,5 | 104,5 |
| **I rüb** | **100,6** | **104,0** | **101,7** | **104,5** |
| Aprel | 99,8 | 103,5 | 99,5 | 103,7 |
| May | 100,0 | 103,2 | 98,7 | 103,2 |
| İyun | 99,3 | 103,0 | 98,4 | 103,0 |
| **II rüb** | **99,7** | **102,1** | **98,6** | **101,5** |
| İyul | 99,4 | 102,8 | 98,5 | 102,8 |
| Avqust | 100,9 | 102,7 | 100,3 | 102,7 |
| Sentyabr | 100,2 | 102,6 | 100,4 | 102,5 |
| **III rüb** | **99,6** | **101,8** | **97,4** | **101,4** |

…ardı...

| | Cəmi məhsullar və xidmətlər | | Ərzaq məhsulları, içkilər və tütün məmulatı | |
|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| Oktyabr | 100,2 | 102,4 | 100,2 | 102,1 |
| Noyabr | 100,6 | 102,3 | 101,2 | 101,9 |
| Dekabr | 100,8 | 102,3 | 101,7 | 101,7 |
| **IV rüb** | **101,3** | **101,2** | **101,9** | **99,5** |
| **2019-cu il** | | | | |
| Yanvar | 100,2 | 101,7 | 100,9 | 100,7 |
| Fevral | 100,6 | 101,9 | 101,1 | 101,0 |
| Mart | 100,6 | 102,1 | 101,3 | 101,5 |
| **I rüb** | **101,5** | **102,1** | **103,7** | **101,5** |

| | Qeyri-ərzaq məhsulları | | Xidmətlər | |
|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2018-ci il** | | | | |
| Yanvar | 100,2 | 105,1 | 99,2 | 103,9 |
| Fevral | 100,1 | 104,7 | 99,9 | 103,3 |
| Mart | 100,0 | 104,3 | 100,1 | 102,9 |
| **I rüb** | **100,5** | **104,3** | **99,2** | **102,9** |
| Aprel | 100,0 | 104,1 | 100,0 | 102,8 |
| May | 100,0 | 103,9 | 101,6 | 102,6 |
| İyun | 100,0 | 103,8 | 100,0 | 102,4 |
| **II rüb** | **100,0** | **103,2** | **101,1** | **101,9** |
| İyul | 100,1 | 103,4 | 100,1 | 102,3 |
| Avqust | 100,1 | 103,2 | 102,2 | 102,4 |
| Sentyabr | 100,2 | 103,0 | 100,1 | 102,5 |
| **III rüb** | **100,2** | **101,5** | **102,1** | **102,7** |
| Oktyabr | 100,2 | 102,8 | 100,1 | 102,6 |
| Noyabr | 100,2 | 102,7 | 100,1 | 102,6 |
| Dekabr | 100,2 | 102,6 | 100,1 | 102,7 |
| **IV rüb** | **100,6** | **101,3** | **100,9** | **103,3** |
| **2019-cu il** | | | | |
| Yanvar | 100,2 | 101,2 | 99,2 | 103,4 |
| Fevral | 100,1 | 101,2 | 100,2 | 103,5 |
| Mart | 100,1 | 101,2 | 100,1 | 103,6 |
| **I rüb** | **100,4** | **101,2** | **99,5** | **103,6** |

Qiymətləri dövlət tərəfindən tənzimlənən məhsullar və xidmətlər, həmçinin mövsümi xarakter daşıyan kənd təsərrüfatı məhsulları nəzərə alınmadan hesablanan və bazis inflyasiyası kimi qəbul edilmiş istehlak qiymətlərinin bazis indeksi 2019-cu ilin yanvar-mart aylarında 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 102,6 faiz təşkil etmişdir.

Qrafik 20

**İstehlak qiymətləri indeksi və istehlak qiymətlərinin bazis indeksinin dəyişməsi** (əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




2019-cu ilin mart ayında ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri fevral ayına nisbətən 1,3 faiz, 2019-cu ilin yanvar-mart aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən isə 1,5 faiz bahalaşmışdır.

Cədvəl 41

**Ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymət indeksləri**

| | 2019-cu ilin mart ayı 2019-cu ilin fevral ayına nisbətən, faizlə | 2019-cu ilin yanvar-mart ayları 2018-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə | Məlumat üçün: 2018-ci ilin yanvar-mart ayları 2017-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| Çörək məmulatları və yarmalar | 100,8 | 100,5 | 98,5 |
| Ət məhsulları | 100,3 | 100,2 | 105,0 |

…ardı

| | 2019-cu ilin mart ayı 2019-cu ilin fevral ayına nisbətən, faizlə | 2019-cu ilin yanvar-mart ayları 2018-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə | Məlumat üçün: 2018-ci ilin yanvar-mart ayları 2017-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| Balıq məhsulları | 100,5 | 102,9 | 102,8 |
| Süd məhsulları, pendir və yumurta | 100,0 | 102,0 | 106,5 |
| Yağ və piylər | 100,0 | 101,7 | 109,3 |
| Meyvələr | 102,0 | 92,7 | 110,7 |
| Tərəvəzlər | 105,6 | 104,4 | 109,5 |
| Qənd, cem, bal, şokolad və konfetlər | 100,0 | 100,3 | 96,5 |
| Digər kateqoriyalara aid edilməyən ərzaq məhsulları | 100,1 | 101,2 | 102,1 |
| Qəhvə, çay, kakao | 100,0 | 103,7 | 104,2 |
| Mineral sular, sərinləşdirici içkilər və şirələr | 100,6 | 101,5 | 101,6 |
| Araq, brendi (konyak) | 101,5 | 109,8 | 101,6 |
| Tütün məmulatları | 104,6 | 116,9 | 84,7 |

2019-cu ilin mart ayında qeyri-ərzaq məhsullarının qiymətləri fevral ayına nisbətən 0,1 faiz, 2019-cu ilin yanvar-mart aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən isə 1,2 faiz bahalaşmışdır.

Cədvəl 42

**Qeyri-ərzaq məhsullarının qiymət indeksləri**

| | 2019-cu ilin mart ayı 2019-cu ilin fevral ayına nisbətən, faizlə | 2019-cu ilin yanvar-mart ayları 2018-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə | Məlumat üçün: 2018-ci ilin yanvar-mart ayları 2017-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| Parçalar | 100,5 | 104,2 | 107,9 |
| Geyim | 100,0 | 101,0 | 103,9 |
| Ayaqqabı | 100,0 | 100,4 | 102,7 |
| İnşaat materialları | 100,1 | 102,4 | 103,3 |

…ardı…

| | 2019-cu ilin mart ayı 2019-cu ilin fevral ayına nisbətən, faizlə | 2019-cu ilin yanvar-mart ayları 2018-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə | Məlumat üçün: 2018-ci ilin yanvar-mart ayları 2017-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| Mebel və ev əşyaları | 100,1 | 102,0 | 103,3 |
| Xalça və digər döşəmə örtükləri | 100,1 | 101,6 | 109,1 |
| Məişət cihazları | 100,0 | 100,4 | 101,6 |
| Kiçik elektrik cihazları | 100,1 | 102,0 | 102,1 |
| Şüşə məmulatları, yemək qabları və əşyaları | 100,2 | 102,3 | 103,8 |
| Evə qulluq etmək üçün lazım olan məhsullar (mebellərə qulluq etmək, unitaz və vannaların təmizlənməsi, qabların yuyulması üçün vasitələr və s.) | 99,9 | 102,5 | 102,0 |
| Dərmanlar | 100,0 | 100,0 | 100,0 |
| Müalicə ləvazimatları və cihazları | 100,5 | 103,6 | 105,4 |
| Minik avtomobilləri | 100,0 | 98,2 | 99,4 |
| Velosipedlər | 100,1 | 101,9 | 106,5 |
| Minik avtomobilləri üçün ehtiyat hissələri | 100,1 | 101,0 | 103,4 |
| Yanacaq məhsulları (benzin və dizel yanacağı) | 100,0 | 100,0 | 116,4 |
| Telefon aparatları | 99,7 | 99,5 | 99,3 |
| Foto-kino avadanlıqları və optik cihazlar | 100,1 | 99,3 | 99,5 |
| Məlumatın işlənməsi üçün avadanlıqlar (kalkulyator, fərdi kompüter, noutbuk, planşet) | 99,9 | 100,3 | 101,1 |
| Oyuncaqlar | 100,2 | 102,6 | 104,9 |
| Açıq havada idman, turizmlə məşğul olmaq və istirahət etmək üçün əşyalar | 100,0 | 100,6 | 105,5 |
| Kitablar | 100,0 | 100,5 | 101,8 |
| Qəzetlər və dövri nəşrlər | 100,0 | 100,3 | 101,8 |

…sonu

| | 2019-cu ilin mart ayı 2019-cu ilin fevral ayına nisbətən, faizlə | 2019-cu ilin yanvar-mart ayları 2018-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə | Məlumat üçün: 2018-ci ilin yanvar-mart ayları 2017-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| Dəftərxana və şəkil çəkmək üçün ləvazimat | 100,4 | 105,5 | 103,1 |
| Şəxsi gigiyena əşyaları və elektrik cihazları (saç qurutmaq üçün fenlər) | 100,0 | 101,7 | 103,4 |
| Zərgərlik məmulatları | 100,1 | 100,8 | 103,2 |
| Sair şəxsi istifadə əşyaları | 100,4 | 101,3 | 104,6 |

2019-cu ilin mart ayında əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri fevral ayına nisbətən 0,1 faiz, 2019-cu ilin yanvar-mart aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən isə 3,6 faiz bahalaşmışdır.

Cədvəl 43

**Əhaliyə göstərilən ödənişli xidmətlərin qiymət indeksləri**

| | 2019-cu ilin mart ayı 2019-cu ilin fevral ayına nisbətən, faizlə | 2019-cu ilin yanvar-mart ayları 2018-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə | Məlumat üçün: 2018-ci ilin yanvar-mart ayları 2017-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| Paltarların təmizlənməsi, təmiri və kirayəsi | 100,1 | 102,1 | 103,8 |
| Ayaqqabıların təmiri | 99,9 | 100,9 | 102,8 |
| İcarəçi tərəfindən ödənilmiş icarə haqqı | 100,7 | 102,2 | 106,7 |
| Soyuq su təchizatı | 100,0 | 100,0 | 100,0 |
| Zibilin daşınması | 100,0 | 100,0 | 100,0 |
| Kanalizasiya xidməti | 100,0 | 100,0 | 100,0 |
| Elektrik enerjisi təchizatı | 100,0 | 100,0 | 100,0 |
| Təbii qaz təchizatı | 100,0 | 110,6 | 111,6 |
| Mərkəzi isitmə xidməti | 100,0 | 100,0 | 100,0 |
| Mebel, ev əşyaları və döşəmə örtüklərinin təmiri | 100,0 | 101,2 | 102,5 |
| Məişət cihazlarının təmiri | 100,4 | 101,1 | 102,3 |

…ardı

| | 2019-cu ilin mart ayı 2019-cu ilin fevral ayına nisbətən, faizlə | 2019-cu ilin yanvar-mart ayları 2018-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə | Məlumat üçün: 2018-ci ilin yanvar-mart ayları 2017-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| Ev və məişət xidmətləri | 100,0 | 102,1 | 103,5 |
| Tibbi xidmətlər | 100,0 | 102,6 | 101,2 |
| Stomatoloji xidmətlər | 100,6 | 101,2 | 102,0 |
| Xəstəxana xidmətləri | 100,0 | 99,7 | 103,7 |
| Avtomobillərin təmiri | 100,1 | 101,6 | 101,3 |
| Nəqliyyat vasitələri ilə bağlı digər xidmətlər | 100,0 | 100,2 | 101,4 |
| Dəmir yolu ilə sərnişindaşıma xidməti | 99,4 | 101,1 | 116,5 |
| Metro nəqliyyatı ilə sərnişindaşıma xidməti | 100,0 | 150,0 | 100,0 |
| Avtomobil nəqliyyatı ilə sərnişindaşıma xidməti | 100,0 | 124,1 | 101,0 |
| Hava nəqliyyatı ilə sərnişindaşıma xidməti | 103,6 | 88,7 | 108,6 |
| Dəniz nəqliyyatı ilə sərnişindaşıma xidməti | 100,0 | 100,0 | 92,6 |
| Poçt xidmətləri | 100,0 | 100,0 | 100,0 |
| Telefon rabitəsi xidmətləri | 100,0 | 99,9 | 97,7 |
| Kompleks istirahətin təşkili üzrə xidmətlər | 100,6 | 101,9 | 100,7 |
| Ödənişli ali təhsil haqqı | 100,0 | 100,4 | 105,8 |
| Restoran və kafelər tərəfindən yeməklə təmin edilmə xidmətləri | 100,0 | 101,4 | 104,2 |
| Mehmanxana xidməti | 99,9 | 102,1 | 100,9 |
| Bərbərxana və kosmetik xidmətlər | 100,4 | 101,4 | 103,4 |
| Nəqliyyat vasitələrinin sığortası haqqı | 100,0 | 100,0 | 100,0 |

Cədvəl 44

## Ölkənin iqtisadi rayonları üzrə 2019-cu ilin mart ayında istehlak qiymətləri indeksləri (əvvəlki aya nisbətən, faizlə)

| | Cəmi məhsullar və xidmətlər | Ərzaq məhsulları, içkilər və tütün məmulatı | Qeyri-ərzaq məhsulları | Xidmətlər |
|---|---|---|---|---|
| Bakı şəhəri | 100,7 | 101,3 | 100,2 | 100,4 |
| Abşeron | 100,4 | 100,8 | 100,1 | 100,0 |
| Gəncə-Qazax | 100,9 | 101,9 | 100,1 | 100,0 |
| Şəki-Zaqatala | 100,7 | 101,6 | 100,0 | 100,0 |
| Lənkəran | 101,0 | 102,1 | 100,1 | 100,2 |
| Quba-Xaçmaz | 100,9 | 102,0 | 100,0 | 100,0 |
| Aran | 100,6 | 101,4 | 100,0 | 100,0 |
| Yuxarı Qarabağ | 100,6 | 101,5 | 100,0 | 100,0 |
| Dağlıq Şirvan | 100,3 | 100,8 | 100,1 | 100,0 |
| Naxçıvan Muxtar Respublikası | 102,1 | 103,3 | 100,4 | 101,8 |

Qrafik 21

## İqtisadi rayonlar üzrə istehlak qiymətləri indeksləri (əvvəlki aya nisbətən, faizlə)



**Sənaye məhsullarının istehsalçı qiymət indeksləri.** 2019-cu ilin mart ayında sənaye məhsullarının istehsalçı qiymətləri əvvəlki ayla müqayisədə 3,2 faiz, o cümlədən mədənçıxarma sənayesi üzrə 3,5 faiz, emal sənayesi üzrə 2,9 faiz bahalaşmış, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, su təchizatı; tullantıların təmizlənməsi və emalı sahələri üzrə isə dəyişiklik baş verməmişdir

Cədvəl 45

**Sənaye məhsullarının istehsalçı qiymət indeksləri**

| | 2019-cu ilin mart ayı 2019-cu ilin fevral ayına nisbətən, faizlə | 2019-cu ilin yanvar-mart ayları 2018-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Sənaye məhsullarının istehsalçı qiymətləri indeksi** | **103,2** | **106,1** |
| Mədənçıxarma sənayesi | 103,5 | 97,7 |
| Emal sənayesi | 102,9 | 107,7 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 100,0 | 100,0 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 100,0 | 100,0 |

**Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq məhsullarının istehsalçı qiymət indeksləri.** 2019-cu ilin mart ayında fevral ayına nisbətən kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri 1,2 faiz, o cümlədən bitkiçilik məhsullarının istehsalçı qiymətləri 3,8 faiz bahalaşmış, heyvandarlıq məhsullarının istehsalçı qiymətləri isə 1,0 faiz ucuzlaşmışdır.

Ay ərzində balıq və sair balıqçılıq məhsullarının istehsalçı qiymətləri 3,9 faiz bahalaşmış, meşə təsərrüfatı məhsullarının istehsalçı qiymətləri isə sabit qalmışdır.

Cədvəl 46

**Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq məhsullarının istehsalçı qiymət indeksləri**

| | 2019-cu ilin mart ayı 2019-cu ilin fevral ayına nisbətən, faizlə | 2019-cu ilin yanvar-mart ayları 2018-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Kənd təsərrüfatı məhsulları** | **101,2** | **101,5** |
| bitkiçilik məhsulları | 103,8 | 96,7 |
| heyvandarlıq məhsulları | 99,0 | 105,2 |
| **Meşə təsərrüfatı məhsulları** | **100,0** | **100,0** |
| **Balıq və sair balıqçılıq məhsulları** | **103,9** | **103,5** |

**Nəqliyyat, poçt və rabitə xidmətlərinin qiymət indeksləri.** 2019-cu ilin mart ayında nəqliyyat xidmətlərinin qiymətləri əvvəlki ayla müqayisədə 0,1 faiz, o cümlədən yükdaşıma xidmətlərinin qiymətləri 0,5 faiz ucuzlaşmış, sərnişindaşıma xidmətlərinin qiymətləri isə 2,0 faiz bahalaşmışdır.

Ay ərzində rabitə, poçt və kuryer xidmətlərinin qiymətlərində əvvəlki ayla müqayisədə dəyişiklik müşahidə olunmamışdır.

Cədvəl 47

**Nəqliyyat, poçt və rabitə xidmətlərinin qiymətləri indeksi**

| | 2019-cu ilin mart ayı 2019-cu ilin fevral ayına nisbətən, faizlə | 2019-cu ilin yanvar-mart ayları 2018-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Nəqliyyat xidmətlərinin qiymət indeksi** | **99,9** | **97,9** |
| Yükdaşıma nəqliyyatı xidməti | 99,5 | 98,3 |
| Sərnişindaşıma nəqliyyatı xidməti | 102,0 | 94,8 |
| **Poçt və kuryer xidmətlərinin qiymət indeksi** | **100,0** | **100,1** |
| **Rabitə xidmətlərinin qiymət indeksi** | **100,0** | **100,0** |

## Kredit qoyuluşları

Mərkəzi Bankın təqdim etdiyi məlumata görə 2019-cu il mart ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli milli valyuta ekvivalentində 12974,6 milyon manat təşkil etmişdir. Ümumi kredit portfelinin 10379,6 milyon manatı və ya 80,0 faizi uzunmüddətli kreditlərin payına düşmüşdür.

Kreditlərin 97,3 faizi banklar, 2,7 faizi isə bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən verilmişdir.

Ödəmə vaxtı keçmiş kreditlərin məbləği 1581,0 milyon manat olmuş və ümumi kredit portfelinin 12,2 faizini təşkil etmişdir.

Cədvəl 48

### İqtisadiyyata kredit qoyuluşu

| | 2019-cu il martın 1-i vəziyyətinə, milyon manat | Əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **Kredit qoyuluşları – cəmi** | 12974,6 | 112,2 |
| o cümlədən: qısamüddətli | 2595,0 | 121,0 |
| uzunmüddətli | 10379,6 | 110,2 |
| Ödəmə vaxtı keçmiş kreditlər | 1581,0 | 93,0 |
| Kreditlərin ümumi həcmində vaxtı keçmiş kreditlərin xüsusi çəkisi, %-lə | 12,2 | x |

Qrafik 22


İqtisadiyyata kredit qoyuluşu, mlrd. manat
22,0
20,0
18,0
16,0
14,0
12,0
10,0
8,0
6,0
4,0
2,0
0,0
11,5
11,6
11,8
11,9
12,1
12,2
12,3
12,3
12,3
12,6
13,0
12,9
13,0
01.03.2018
01.04.2018
01.05.2018
01.06.2018
01.07.2018
01.08.2018
01.09.2018
01.10.2018
01.11.2018
01.12.2018
01.01.2019
01.02.2019
01.03.2019
Uzunmüddətli
Qısamüddətli

## Məşğulluq və işsizlik

2019-cu il aprelin 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 5131,7 min nəfər olmuş, onlardan 4877,6 min nəfərini məşğul əhali təşkil etmişdir.

Cari il martın 1-i vəziyyətinə muzdla işləyənlərin sayı 1534,3 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 865,3 min nəfər, qeyri-dövlət sektorunda isə 669,0 min nəfər təşkil etmişdir. İqtisadiyyatın neft sektorunda 34,4 min nəfər, qeyri-neft sektorunda isə 1499,9 min nəfər çalışmışdır.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 23,2 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,2 faizi emal sənayesində, 6,8 faizi tikintidə, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 2,2 faizi mədənçıxarma sənayesində, 2,0 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olmuşdur.

Xidmət sahəsində işləyənlərin 21,8 faizi təhsil, 18,8 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,1 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,6 faizi istirahət, əyləncə və incəsənət, 3,5 faizi peşə, elmi və texniki fəaliyyət, 1,8 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 1,7 faizi informasiya və rabitə, 1,6 faizi maliyyə və sığorta fəaliyyəti, 1,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi və 1,0 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahələrində çalışmışlar.

Cədvəl 49

**2019-cu il mart ayının 1-i vəziyyətinə iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə muzdla işləyən işçilərin sayı**
(min nəfər)

| İqtisadi fəaliyyət növləri | Cəmi | o cümlədən | |
|---|---|---|---|
| | | dövlət | qeyri-dövlət |
| **Ölkə üzrə – cəmi** | 1 534,3 | 865,3 | 669,0 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 49,1 | 26,7 | 22,4 |
| Mədənçıxarma sənayesi | 34,3 | 13,3 | 21,0 |
| Emal sənayesi | 110,3 | 19,8 | 90,5 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 27,5 | 26,8 | 0,7 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 30,2 | 27,1 | 3,1 |
| Tikinti | 104,3 | 30,3 | 74,0 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 289,1 | 1,5 | 287,6 |
| Nəqliyyat və anbar təsərrüfatı | 70,9 | 47,1 | 23,8 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 24,3 | 0,9 | 23,4 |
| İnformasiya və rabitə | 26,9 | 15,4 | 11,5 |
| Maliyyə və sığorta fəaliyyəti | 25,2 | 4,8 | 20,4 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 15,1 | 7,3 | 7,8 |
| Peşə, elmi və texniki fəaliyyət | 53,7 | 33,0 | 20,7 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 27,2 | 13,2 | 14,0 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 109,2 | 103,0 | 6,2 |
| Təhsil | 334,0 | 324,6 | 9,4 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 131,9 | 117,6 | 14,3 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 54,7 | 51,1 | 3,6 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 16,4 | 1,8 | 14,6 |

2019-cu ilin yanvar-fevral aylarında bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 153,2 saat təşkil etmişdir.

Cədvəl 50

## 2019-cu ilin yanvar-fevral aylarında iqtisadi fəaliyyət növləri üzrə bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı

| İqtisadi fəaliyyət növləri | İş saatlarının miqdarı |
|---|---|
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 151,1 |
| Mədənçıxarma sənayesi | 154,6 |
| Emal sənayesi | 152,4 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 159,1 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 160,1 |
| Tikinti | 150,7 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 158,6 |
| Nəqliyyat və anbar təsərrüfatı | 153,3 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 156,6 |
| İnformasiya və rabitə | 157,3 |
| Maliyyə və sığorta fəaliyyəti | 154,5 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 154,2 |
| Peşə, elmi və texniki fəaliyyət | 153,3 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 151,1 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 156,9 |
| Təhsil | 146,9 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 151,7 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 156,8 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 147,6 |

2019-cu il aprel ayının 1-i vəziyyətinə məşğulluq xidməti orqanlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı 39,4 min nəfər olmuş, onların 33,9 faizini qadınlar təşkil etmişdir. İşsizlikdən sığorta ödənişinin orta məbləği 239,5 manat olmuşdur.

Cədvəl 51

## Məşğulluq xidməti orqanlarında qeydiyyata alınmış işsiz şəxslərin və işsizlikdən sığorta ödənişi alanların sayı (1 aprel 2019-cu il vəziyyətinə)

| | İşsiz şəxslərin sayı, nəfər | onlardan işsizlikdən sığorta ödənişi alanlar |
|---|---|---|
| **Ölkə üzrə – cəmi** | **39 421** | **967** |
| **Bakı şəhəri – cəmi** | **18 658** | **530** |
| **Abşeron iqtisadi rayonu – cəmi** | **3 391** | **112** |
| o cümlədən:<br>Xızı rayonu | 371 | 3 |
| Abşeron rayonu | 922 | 31 |
| Sumqayıt şəhəri | 2 098 | 78 |
| **Gəncə-Qazax iqtisadi rayonu – cəmi** | **5 330** | **34** |
| o cümlədən:<br>Gəncə şəhəri | 668 | 10 |
| Qazax rayonu | 277 | 1 |
| Ağstafa rayonu | 129 | 1 |
| Tovuz rayonu | 212 | 4 |
| Şəmkir rayonu | 2 353 | 7 |
| Gədəbəy rayonu | 388 | - |
| Daşkəsən rayonu | 630 | 1 |
| Samux rayonu | 331 | 1 |
| Göygöl rayonu | 202 | 2 |
| Goranboy rayonu | 82 | 5 |
| Naftalan şəhəri | 58 | 2 |
| **Şəki-Zaqatala iqtisadi rayonu – cəmi** | **836** | **28** |
| o cümlədən:<br>Balakən rayonu | 256 | 5 |
| Zaqatala rayonu | 226 | 4 |
| Qax rayonu | 70 | 6 |
| Şəki şəhəri | 92 | 3 |
| Oğuz rayonu | 54 | 3 |
| Qəbələ rayonu | 138 | 7 |
| **Lənkəran iqtisadi rayonu – cəmi** | **1 032** | **37** |
| o cümlədən:<br>Astara rayonu | 285 | - |
| Lənkəran şəhəri | 391 | 18 |
| Lerik rayonu | 32 | 1 |

...ardı...

| | İşsiz şəxslərin sayı, nəfər | onlardan işsizlikdən sığorta ödənişi alanlar |
|---|---|---|
| Yardımlı rayonu | 52 | 4 |
| Masallı rayonu | 57 | 14 |
